


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

6 yanvar 2023-cü il
cümə

1933-cü ildən çıxır
№ 1 (3615)

# AZƏRBAYCANLILARIN DAYAĞI GÜCLÜ AZƏRBAYCANDIR



Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ənənəvi müraciəti dövlət başçısının xalqı təbrik etmək mahiyyəti daşısa da, növbəti siyasi hədəflərin koordinatlarını dəqiqləşdirmək baxımından da bizə yetərincə informasiya verir. Sözü imzası qədər qüvvətli dövlət başçısı kimi dünya liderləri arasında seçilən Prezidentimizin qarşıya qoyduğu bütün vəzifələr hər zaman gerçəkləşdiyinə görə builki müraciətində sərf etdiyi ifadələr də perspektivlər barədə çəkinmədən fikir yürütməyimizə imkan verir.

Ölkəmizin rəhbəri əvvəlcə ötən ilin uğurlarını sadaladı. Və biz buradan belə qəti qənaətə gəlirik ki, artıq geridə qalan 2022-ci il haqqında danışarkən, tarix onu ilk növbədə Azərbaycanın bir vaxtlar aktiv cəlb olunduğu hərbi münaqişədə "sülh naminə diplomatik uğur qazandığı il" olaraq anacaq. Çünki, İkinci Qarabağ müharibəsindəki qələbəmizin siyasi müstəvidə daha da möhkəmlənməsi, Praqa və Soçi görüşlərində Ermənistanın ölkəmizin ərazi bütövlüyünü, suverenliyini rəsmən tanıması məhz ötən il baş verdi. Prezident İlham Əliyevin diplomatik məharəti sayəsində iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün bütün şərtlər təmin edilib, hansı ki, danışıqlar da Azərbaycanın təklif etdiyi beş prinsip əsasında aparılır.

Nə qədər ziddiyyətli görünsə də, hər zaman diplomatiyanın kəsəri dövlətin hərbi gücündən asılı olub. Güclü ordun varsa, müzakirə masasında kimin sözünün eşidiləcəyi bəri başdan aydındır. İkinci Qarabağ müharibəsindən sonra diplomatiyaya verilən meydanda Azərbaycanın haqlı mövqeyini, əslində, yenə güclü Silahlı Qüvvələrimiz qoruyur.

Cənab Prezidentin çıxışında bu məsələyə toxunması da təsadüfi deyildi. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan həm İkinci Qarabağ müharibəsi dövründə öz hərbi gücünü göstərdi, həm də müharibədən keçən iki il ərzində aparılan islahatlar sayəsində, yeni silahlı birləşmələrin yaradılması, silah və müasir texnika ilə ordumuzun təchiz edilməsi nəticəsində daha böyük hərbi potensiala malik olmuşuq: ***“Bu il bir neçə hərbi əməliyyat keçirildi və bu əməliyyatlar döyüş qabiliyyətimizin yüksək səviyyədə olmasını bir daha təsdiqlədi. Fərrux əməliyyatı, “Qisas” əməliyyatı, eyni zamanda, sentyabr ayında Azərbaycan və Ermənistan sərhədi istiqamətində gedən toqquşmalar bizim növbəti parlaq qələbəmizlə nəticələndi. Sərhəd toqquşmaları nəticəsində Azərbaycan bir çox əlverişli strateji yüksəkliklərdə öz mövqelərini daha da möhkəmləndirə bilmişdir”.***

Dövlət başçısı qeyd etdi ki, Azərbaycan dünya miqyasında iqtisadi göstəriciləri də postpandemiya dövrü üçün qənaətbəxşdir. İqtisadiyyat təxminən 5 faiz, qeyri-neft sektoru 9 faizdən çox artıb. Ümumi daxili məhsul rekord həddə - 130 milyard manata çatıb. Xarici borcun ümumi daxili məhsulun 10 faizinin altında olması ölkəmizin siyasi-iqtisadi azadlığını təmin edib. Yəni, ölkəmiz heç bir beynəlxalq maliyyə institutlarından asılı deyil.

Azad edilmiş torpaqlara Böyük Qayıdış Proqramı Azərbaycanın məhz öz imkanları daxilində icra edilir. Şuşa, Ağdam, Füzuli, Zəngilan, Laçın şəhərlərində geniş quruculuq işləri gedir, xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir. Ötən il ölkə rəhbərinin regionlara 30 səfərinin 21-nin azad edilmiş torpaqlara edilməsi bu quruculuq-bərpa işlərinin onun şəxsi nəzarətində həyata keçirildiyinin bariz nümunəsidir.

“Növbəti hədəflərin koordinatlarını” görmək baxımından müraciətdə iki məsələ xüsusilə diqqət çəkdi. Onlardan biri laçınlıların 2023-cü ildə Laçına qayıdacaqları barədə Prezidentin əminliyini ifadə etməsi idi. İkinci önəmli mesaj isə Zəngəzur dəhlizi ilə bağlıdır: ***“Zəngəzur dəhlizinin açılması ilə əlaqədar genişmiqyaslı işlər aparılır, dəmir yolları, avtomobil yolları çəkilir. Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır”.***




Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il yanvar ayının 26-da Qəbələ Rayon Polis Şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 25.01.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

## Yenə “ASAYİŞİN KEŞİYİNDƏ”yik

*“Asayişin keşiyində” jurnalının ötən il üçün hesabat nömrəsi artıq ixtiyarınızdadır. Bu nömrəmizdə də mövzuların müxtəlifliyinə, rəngarəngliyinə, aktuallığına, ən əsası, sizlərin gözləntilərinə xüsusi önəm verdik.*

*İlk səhifələrimizdə Şuşadan başlanan Zəfər coşqusunun bütün türk dünyasını birləşdirdiyini, yeni dünya düzənində Azərbaycanın iqtisadi, siyasi və hərbi gücə çevrildiyini qələmə aldıq. Azərbaycan Polisinin qürur doğuran xidmətində ictimai rəyin mühüm rol oynamasından, MDB ölkələrinin Daxili İşlər Nazirlikləri ilə qurulan beynəlxalq əməkdaşlıqdan, vətəndaş qəbulları zamanı müraciətlərin yerindəcə həllini tapmasından, DİN rəhbərliyinin gənclərə, xüsusilə Vətən müharibəsi qazilərinə göstərdiyi diqqət və qayğıdan, ömrü Vətənə xidmətdə keçənlərdən, unudulmayanlardan yazdıq.*

*“Biz onları, onlar da Vətəni qorusunlar” başlıqlı müsahibədə Bakı şəhəri üzrə yetkinlik yaşına çatmayanlarla profilaktiki iş aparan əməkdaşlarla dəyirmi masa arxasında görülən işlər, eləcə də mövcud problemlər barədə söhbətləşdik. Müzakirə mövzusuna çevrilən məsələlərə faydamız toxunsun deyə işıqlandırdıq. Ən fəal dövlət orqanı kimi seçilməyimizdən, narkomaniya ilə apardığımız qətiyyətli mübarizədə maarifləndirmə tədbirlərinin əhəmiyyətindən bəhs edən mövzuları oxuyub qiymətləndirməyi isə öhdənizə buraxırıq. Polis generalı Kamil Məmmədovun Qarabağ xatirələrinin və həmkarımız Rəşad Mehtiyevin müəllifi olduğu “Kinomuzda polis obrazı. Bizi necə görür və göstərirlər?” başlıqlı araşdırmasının xüsusi marağınıza səbəb olacağına şübhə etmirik.*




*Nəfis tərtibatı ilə diqqət çəkən, mövzularla fotoların harmoniya təşkil etdiyi bu nömrəmizdə “maraq dünyası”na da baş vurduq.*

# ANDIMIZ HƏMİN ANDDIR!

Artıq ilk günlərini yaşadığımız 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması, həm də daxili işlər orqanlarının yenidən formalaşmasında ulu öndərin əvəzsiz fəaliyyətini yada salır. Heydər Əliyev Bakıya xilaskar kimi gəlməklə, Azərbaycanı vətəndaş müharibəsindən, bir dövlət kimi parçalanıb məhvolma təhlükəsindən, siyasi, sosial-iqtisadi, mənəvi böhrandan çıxardı. Bunu hər birimiz, hər bir polis əməkdaşı, güc strukturunun nümayəndəsi çox yaxşı bilir. Çünki daxili işlər orqanlarının tarixi elə Azərbaycanın tarixi deməkdir.

Ulu öndərin hakimiyyətə gəldiyi ilk gündəcə dövlət quruculuğu yolunda sərgilədiyi siyasi iradənin həyata keçməsində daxili işlər orqanları əsas yükü üzərinə götürəcəkdi. Polisin andı, eyni zamanda dövlətin xilaskarına içilmiş and idi. Çox-çox sonralar ümummilli lider özü bu haqda danışarkən, polisin taleyüklü anlardakı xidmətinə istinadən belə deyəcəkdi: "Azərbaycan Respublikasının dövlət atributlarından biri də Azərbaycan Ordusu ilə yanaşı, Daxili İşlər Nazirliyidir, bu Nazirliyin sistemində olan idarələr və qoşun hissələridir, polis orqanlarıdır. Məlumdur ki, hər bir müstəqil dövlət bir neçə böyük sütun üstündə fəaliyyət göstərə bilir. Hər bir dövlət üçün, o cümlədən müstəqil Azərbaycan dövləti üçün bu sütunlardan biri də Daxili İşlər Nazirliyi, polis orqanlarıdır".



Qurtuluş günlərimizdən üzü bəri çətin və şərəfli yol daxili işlər orqanlarının, onun ayrı-ayrı strukturlarının taleyindən keçir. Bu yolda şəhid də vermişik, qazi də olmuşuq. İkinci Qarabağ müharibəsində DİN Daxili Qoşunlarının hərbçilərinin ölkəmizin ərizi bütövlüyünün bərpa edilməsi uğurunda göstərdikləri qəhrəmanlıqlar, fədakarlıqlar bizə müstəqil dövlət quruculuğunda ulu öndərin yolunu cinayətkar əməllərdən, qəsdlərdən təmizləyən Azərbaycan Polisinin dünəni xatırlatdı. Bu, o reallığı bir daha təsdiq edirdi ki, ərazi bütövlüyümüz, suverenliyimiz, ictimai sabitliyimiz, insan hüquq və azadlıqlarının qorunması, cinayətkarlıqla mübarizə sahəsində üzərimizə düşən missiya dövlətçiliyimizin müdafiəsi, möhkəmləndirilməsi ilə birbaşa bağlıdır.

Ümummilli lider Heydər Əliyevin 1993-1995-ci illəri əhatə edən hakimiyyətinin birinci mərhələsi dağıdılmış dövlət strukturlarının, iflic vəziyyətinə salınmış idarəetmə aparatının bərpası, cəbhədə bir-birinin ardınca məğlubiyyətlərdən sarsılmış cəmiyyətdə tədricən sabitliyin bərqərar olmasına yönəlmişdi. Misilsiz təşkilatçılıq, gərgin diplomatik səyləri nəticəsində ulu öndər buna qısa müddətdə nail oldu.

Heydər Əliyevin hakimiyyətinin 1995-2003-cü illərdə ikinci və həlledici mərhələsində isə tarix aparılan köklü islahatlara, əməliyyat-xidməti fəaliyyətimiz üçün müasir tələblərə cavab verən normativ hüquqi bazanın yaradılması prosesinə, eyni zamanda, həyatımızın bütün sahələrinin canlanması, inkişafı, dövlət və ordu quruculuğu, hüquqi-demokratik cəmiyyətin formalaşdırılması, müstəqil respublikamızın dünya birliyində özünə layiqli yer tutması kimi uğurlara şahidlik edəcəkdi.

Ulu öndərin siyasi xəttinin davamçısı Prezident İlham Əliyevin daimi diqqət və qayğısını hiss edən daxili işlər orqanlarının əməkdaşları bu gün də ictimai asayişin qorunmasında və təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə şərəfli xidmətlərini davam etdirirlər.

Necə deyərlər, sözümüz həmin söz, andımız həmin anddır!

# ŞƏHİD AİLƏLƏRİ ZİYARƏT OLUNUB









Beyləqan, Xızı, Göygöl, Oğuz və Biləsuvar Rayon Polis şöbələrinin əməkdaşları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan oğullarımızın ailələrinə baş çəkib, onların qayğıları ilə maraqlanıblar.

Şəhid ailələri ilə keçirilən görüşlərdə igid oğullarımızın müqəddəs amal uğrunda canlarından keçdikləri bir daha vurğulanıb, onların əziz xatirəsinin daim qəlbimizdə yaşayacağı diqqətə çatdırılıb.

Həmkarlarımız gətirdikləri bayram sovqatlarını şəhid ailələrinə təqdim ediblər.

Aztəminatlı ailələri də ziyarət edən asayiş keşikçiləri onlara da bayram sevinci yaşadıblar.

Şəhid ailələri və aztəminatlı soydaşlarımız göstərilən diqqət və qayğıya görə Daxili İşlər Nazirliyinin kollektivinə təşəkkür ediblər.

*"Polis"*



# Onların bizə ehtiyacı var

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində DİN İdman Cəmiyyətinin kollektivi valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2 nömrəli ümumi orta internat məktəbində olublar.

İnternat sakinlərini əlamətdar günlər münasibətilə təbrik edən **DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxətdinova** ölkəmizdə uşaqlara göstərilən qayğıdan söhbət açıb və bu tipli məktəblərdə böyüyən, təhsil alan şagirdlərin dövlətin, eləcə də Heydər Əliyev Fondunun xüsusu diqqətində olduğunu deyib.



Olimpiya çempionu onlara gələcəkdə uğur qazanmaq, karyeralarını inkişaf etdirmək və dövlətimizi dünyada təmsil etmək üçün idmanla məşğul olmalarını, dərslərini yaxşı oxumalarını tövsiyə edib.

İnternat məktəbinin rəhbərliyi və kollektivi ata-ana nəvazişinə hər zaman ehtiyacı olan körpələrə bayram süfrəsi təşkil etdiklərinə, onları hədiyyələrlə sevindirdiklərinə görə həmkarlarımıza minnətdarlıqlarını bildiriblər.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Qaydalara riayət edək

Yanvarın 1-də Şəfa stadionunun yaxınlığında 5 nəfərin ölümü ilə nəticələn ağır yol qəzası ölkə gündəmini zəbt etdi. Hadisənin şokundan ayılmamış daha bir dəhşətli qəza xəbərini "Zərbənin təsirindən nəqliyyat vasitəsi ikiyə bölündü" başlığı ilə saytlar tirajladı. Böyükşor gölü üzərindən keçən yolda "Mercedes-Benz E-Class" və "Saipa" markalı avtomobillər toqquşmuşdu. Səbəb sürət həddinin aşılması idi.




Hər gün bu kimi xəbərləri eşitməyək, doğmalarımızı, əzizlərimizi itirməyək deyə Baş Dövlət və Bakı Şəhər Dövlət Yol Polisi İdarələri mütəmadi olaraq, xüsusən də bayram günlərində KİV-lər, sosial şəbəkələr vasitəsilə vətəndaşlara müraciət edir, sürücüləri, ümumən yol hərəkəti iştirakçılarını intizamlı, eləcə də hərəkət intensivliyinin çoxluq təşkil etdiyi yerlərdə daha diqqətli və ehtiyatlı olmağa, həmçinin sürət həddini aşmamağa çağırır. Bu məsələnin hüquqi tərəfidir...

Aparılan təhlillərdən gəlinən qənaət budur ki, son dövrlərdə baş vermiş qəzalara səbəb məhz sürücülərin şəxsi məsuliyyətsizliyidir. Sürücü bilməlidir ki, onun avtomobili sürətlə idarə etməsi təkcə özünün deyil, digər hərəkət iştirakçılarının da həyat və sağlamlığı uçün təhlükədir.

"Polis" qəzeti də həmkarlarımızın fəaliyyətini təqdir edir, onların apardıqları maarifləndirmə işlərinə dəstək verməklə yanaşı, sürücülərə, hərəkət iştirakçılarına qəza riskini azaltmaq, baş verə biləcək bədbəxt hadisələrdən qorunmaq məqsədilə sürət həddini aşmamağı, təhlükəsizlik kəmərindən istifadə etməyi, habelə sükan arxasında diqqəti yayındıracaq hərəkətlərə yol verməməyi tövsiyə edir.

*T.Əlizadə*

# Silah-sursat aşkar edilib

**Xocavənd Rayon Polis Şöbəsinin** əməkdaşları tərəfindən işğaldan azad edilmiş ərazilərdəki tərk edilmiş hərbi mövqelərdən silah-sursatın və partlayıcı vasitələrin toplanması istiqamətində intensiv tədbirlər davam etdirilir.




DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, RPŞ əməkdaşlarının rayon ərazisində keçirdiyi tədbirlər nəticəsində **1 avtomat, 1 pulemyot, 4 tank əleyhinə idarə olunan raket sistemi, 2 qumbaraatan, 21 əl qumbarası, 156 müxtəlif çaplı mərmi, 12.800 ədəd müxtəlif çaplı patron və digər sursatlar** götürülərək aidiyyəti üzrə təhvil verilib.

*Aslan Qiyaslı,*
*polis kapitanı*

# Əsgər andı içməyənlər, Vətən andı içə bilməz...

Vətənimizin müdafiəsi və ərazi bütövlüyümüz uğrunda şəhidlik zirvəsinə ucalan igid oğullarımızdan biri də Daxili İşlər Nazirliyinin hərbi qulluqçusu, çavuş Talıblı Asif Arif oğludur. O, 1993-cü ilin aprel ayının 26-da Biləsuvar rayonunun Zəhmətabad kəndində doğulub. Asif Zəhmətabaddakı şəhid Dadaş Dadaşov adına əsas orta məktəbdə 9-cu sinfədək oxuyub. Sonra təhsilini Biləsuvar Rayon Peşə Liseyində davam etdirərək geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər peşəsinə yiyələnib.

2011-ci ilin aprel ayında Asif müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hacı Zeynalabdin Tağıyev qəsəbəsində yerləşən Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində mühafizə bölüyündə xidmət edib. 2012-ci ilin oktyabr ayında ordu sıralarından tərxis olunub.

2013-cü ilin aprel ayının 16-da Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Onun qoşunların sıralarında hərbi xidməti 17072 saylı hərbi hissədə keçib. Xüsusi vasitələrin tətbiqi



dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunun meteomüşahidəçi-atıcısı, xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunun AQS-17 qumbaraatan yarımqrupunun tuşlayıcısı, həmin dəstənin xüsusi həmlə qrupunun yarımqrupunun atıcısı, atıcı-qumbaraatan köməkçisi vəzifələrinə təyin edilərək, əzmkarlığı ilə komandanlığın etimadını doğruldub.

Vətən müharibəsi iştirakçısı, polkovnik-leytenant Zaur Rəhimov bildirdi ki, Asif nizam-intizamı, təlimlərdə çalışqanlığı, verilmiş tapşırıqları yerinə yetirərkən ayıq-sayıqlığı, yoldaşlarına qayğısı ilə yadda qalıb.

İsmayıllı Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti Bölüyünün komandirinin müavini, Daxili Qoşunların sabiq hərbi qulluqçusu, Vətən müharibəsi iştirakçısı, polis kapitanı Qurban Səfərli deyir ki, Asifin Vətən müharibəsi zamanı döyüş yolu sentyabrın 27-də Kəlbəcər istiqamətindən başlayıb: "Müdafiə Nazirliyinin xüsusi təyinatlıları ilə birgə döyüş tapşırıqlarını yerinə yetirmişik. O, silahdaşları ilə birlikdə 4-cü qrupun tərkibində vuruşub. Murovdağ ərazisində düşmənin bir neçə postunun ələ keçirilməsində cəsurluq göstərib. Sonra Cəbrayıl və Xocavənd rayonlarının ayrı-ayrı yaşayış məntəqələrinin işğaldan azad olunmasına öz döyüşçü töhfəsini verib. Hadrut qəsəbəsi və ətraf yüksəkliklər uğrunda döyüşlərdə düşmənin canlı qüvvəsi, eləcə də texnikasının məhv edilməsində onun rolu az olmayıb. Həmin döyüşlər zamanı Asif erməni snayperinin gülləsinə tuş gələrək şəhid oldu".

17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcısı, Vətən müharibəsi iştirakçısı çavuş Samir Qarayev də Asiflə bağlı xatirələrini bölüşdü: "İlk tanışlığımız xüsusi vasitələrin tətbiqi dəstəsində olub. Sonra xüsusi təyinatlı dəstəyə eyni gündə keçirilmişik. Kəlbəcərdə, Cəbrayılda və Xocavənddə düşməni məhv etmişik. Hadrutun azad olunmasının sevincini



yaşamışıq.

Hadrutda Asifin dediyi bu sözləri heç vaxt unutmaram: "Samir, qızım Ayan üçün çox darıxmışam, səsini eşitsəm, içimə sakitlik gələcək...". Dedim ki, inşallah, döyüş bitsin, evlə danışarsan. Ancaq o anda dayandığımız mövqeyə düşmən müxtəlif silahlardan atəş açdı. Qrup komandirlərimizdən biri yaralandı. Birdən kimsə Asifin də yaralandığını dedi. Sağa baxdım, Asifin yerə yıxılmışdı. Asifin şəhid olması məni dərindən sarsıtdı. O, oktyabrın 11-də axşamçağı şəhadətə ucaldı".

Şəhid hərbi qulluqçumuz oktyabrın 13-də Zəhmətabad kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15, 24, 29 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş A.Talıblı ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Diqqətəlayiq faktdır ki, şəhidin qardaşları Vasif və Ziya da Vətən müharibəsində iştirak edərək döyüş sınağını yaşayıblar. Vasif Daxili Qoşunların sabiq hərbi qulluqçusudur, hazırda Biləsuvar Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti Bölüyündə manqa komandiridir.

***Yalçın Abbasov***
***DİN-in Daxili Qoşunlarının veteranı***

# İl qələbələrlə yadda qaldı



Azərbaycan gəncliyinin artan uğurları, dünyanın idman meydanlarında qazandığı qələbələr idman tariximizin şanlı səhifələrinə çevrilib. Yola saldığımız il böyük idman hadisələri ilə yadda qaldı. Sevindirici haldır ki, DİN İdman Cəmiyyətinin yetirmələri, eləcə də polis idmançılar ötən il ciddi uğurlar əldə etdilər.







2022-ci il ərzində daxili işlər orqanları əməkdaşları tərəfindən qazanılmış 29 medaldan 17-si beynəlxalq arenalarda, Avropa və dünya çempionatlarında əldə olunub. Ümumiyyətlə ötən il ərzində DİN-in İdman Cəmiyyətinin yetirmələri ölkə və beynəlxalq miqyaslı yarışlarda 143 medal qazanıblar ki, onlardan da 49-u qızıl, 42-si gümüş, 52-si isə bürüncdür. Medalların 46-sı yeniyetmələrin, 44-ü gənclərin, 53-ü böyüklərin payına düşür. Beynəlxalq miqyaslı yarışlarda 51, respublika birincilik və çempionatlarında isə 92 medal qazanılıb.

Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyləri Oyunlarında DİN DQ-nin idman komandasının məşqçi-müəllimi, kapitan Ruslan Lunyov güllə atıcılığı üzrə 4 qızıl, 4 gümüş və 1 bürünc medala sahib olub.

Bundan əlavə,İdman Cəmiyyətinin idman-təlim şöbəsinin rəisi, polis polkovnik-leytenantı Eduard Məmmədov və fiziki hazırlıq şöbəsinin baş inspektoru, polis kapitanı Elşən İbişov, Əlahiddə Çevik Polis Alayının əməkdaşları Məmmədəli Mehdiyev, Asif Səlimli, Azər Fətullayev, Anar Məmmədov, Polis Akademiyasının fiziki hazırlıq kafedrasının müəllimi, polis kapitanı Natiq Eminov dünya və qitə çempionatlarında, dünya kuboku yarışlarında yüksək nəticələr əldə ediblər.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən 2022-ci ilin yekunlarına görə reytinq cədvəlində DİN-in İdman Cəmiyyətinin 4 təmsilçisi: güllə atıcısı Ruslan Lunyov, stend atıcıları Nurlana Cəfərova və Fuad Qurbanov, cüdoçu Məmmədəli Mehdiyev ilin ən yaxşı on idmançısı siyahısında yer alıb.

Qeyd edək ki, yola saldığımız il ərzində respublikanın idman həyatında göstərdiyi yüksək nailiyyətlərə görə Cəmiyyətin idman-təlim şöbəsinin baş inspektoru, polis polkovnik-leytenantı Radik Hüseynov və Baş Mühafizə İdarəsinin əməkdaşı Cavid Çələbiyev "Tərəqqi" medalına layiq görülüb, güləşçimiz İslam Abbasov mükafat qaydasında evlə təmin olunub.

***Ruslan Vəliyev,***
***polis baş leytenantı***

# Polislər özlərini sipər etdilər

Uşaq sığınacağında münaqişə yaradan ana və nənə məhkəmənin qərarı ilə cəzalandırılıb. Hadisə bayram günlərində baş verib.




Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə rəhbəri olduğu sığınacağa 3 həftə öncə nənənin nəvələrinin həyatına təhlükə olması səbəbindən sığınacağa yerləşdirmək istədiyini, onlar da uşaqları qəbul edib, aidiyyəti qurumlara məlumat verdiklərini bildirib. Sosial Xidmətlər Agentliyi tərəfindən ananın şəraitinə baxış keçirilib və uşaqların bir müddət sığınacaqda reabilitasiya keçməsi məqsədəuyğun hesab edilib. Ata uşaqların vəziyyətini öyrəndikdən sonra ərizə ilə məhkəməyə müraciət edərək uşaqların himayəsinin ayrıldığı qadından alınaraq ona verilməsi iddiasını qaldırıb.

Bayram günü isə nənə gəlib qızının onu hədələdiyini, uşaqların dərhal qaytarılmasını tələb edib. Sığınacağın işçiləri isə qeyri-iş günü olmasını əsas gətirərək uşağı yalnız dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə təhvil verə biləcəklərini, bunun üçün iş günlərinin başlamasını gözləməyi xahiş ediblər. Bundan sonra uşaqların anası da sığınacağa gəlib və münaqişə yaranıb.

**Binəqədi RPİ 4-cü PŞ-nin rəisi, polis mayoru Natiq Teymurov** qəzetimizə hadisə barədə bildirib ki, qadınlar səs-küy saldıqlarına, oradakı uşaqların həyatına təhlükə yaratdıqlarına görə hadisə yerinə polis dəvət olunub. Şöbə əməkdaşlarının onlarla söhbətlər aparıb, anaya hüquqi proseduru izah etmələrinə baxmayaraq, o, xidməti vəzifəsini yerinə yetirən dövlət nümayəndələrinə müqavimət göstərib, hətta, xidməti avtomaşının şüşələrini sındırıb. Bundan sonra onlar böməyə aparılıb və toplanmış materiallar məhkəməyə təqdim edilib. Məhkəmənin qərarı ilə himayəsində azyaşlı olduğuna görə uşaqların anası A.Kazımova barəsində cərimə cəzasının tətbiq edilməsi ilə kifayətlənilib, eləcə də şöbədə xidməti avtomaşına dəymiş zərər ödətdirilib.

***Kəmalə Ağazadə öz feysbuk səhifəsində yazır: "Polis əməkdaşlarına səbr diləyirəm. Onlar özlərini sipər etdilər. Polislər dadımıza yetməsəydi, sığınacağa böyük ziyan dəyəcək, uşaqlarımıza xəsarətlər yetiriləcəkdi. Mənim qollarım aldığım xəsarətdən göyərib. Əsas uşaqların təhlükədən uzaq olması idi, bunu da polis etdi..."***

***R.Mehtiyev***

# Güclülər qalib gəlir

Bu günlərdə Abşeron Olimpiya İdman Kompleksində Sumo idman növü üzrə Azərbaycan çempionatı keçirilib.




Mübarizəyə qatılan 25-dən çox komanda arasında Sumqayıt DİN İdman Cəmiyyətinin regional qurumunun idmançıları fəallıqları ilə seçilib və onlar komanda hesabında II olublar.

Belə ki, DİN-ə bilavasitə tabe olan İnzibati Həbs Olunanların Saxlanılma Mərkəzinin cinayət axtarışı üzrə əməliyyat müvəkkili, polis leytenantı Sadiq Ağamalıyev (115), mülkilərdən Əli Mirzəzadə (70), Yasəman Məcidli (50) və Firuzə Məcidli (65) kiloqram çəki dərəcələrində I, Nahid Məmmədli isə 65 kiloqramda II yerdə qərarlaşıb.




Komandamızı yarışa Sumqayıt Şəhər Polis İdarəsinin Post-Patrul Xidməti taborunun təlim üzrə baş inspektoru, polis leytenantı Tural Əliyev hazırlayıb.

***R.Vəliyev***

# OĞURLANMIŞ QƏTL

- Bu, mənə başqa bir qətli xatırladır - Qoudek dedi. - O da yaxşı düşünülmüş və hazırlanmışdı. Ancaq qorxuram mənim hekayəm sizin xoşunuza gəlməyə, çünki onun sonu yoxdur və sirr açılmamış qalır. Maraqlı olmasa, deyin, davamını danışmayım.

Məncə Siz mənim Albalılıq tərəfdə Kruçemburski küçəsində yaşadığımı bilirsiniz. Bu həmən qısa və köndələn küçələrdəndir ki, orda nə meyxana, nə camaşırxana, heç nə də məhəllə dükanı var. Saat ondan saat on birə qədər radioya qulaq asan avaralardan başqa bütün küçə sakinləri yatır. Burada əsasən sakit vergiödəyiciləri, kiçik məmurlar (ən yüksək ranq yeddinci sinif idi) yaşayır. Onların sırasında bir neçə həvəskar ixtioloq, sitra ifa edən bir musiqiçi, iki filatelist, bir vegeterian, bir spirit və bir də sufi-kommivoyajör var idi. Küçənin qalan sakinləri bu adamların kirayələdiyi və elanlarda deyildiyi kimi "gündəlik səhər yeməyi də daxil olan və təmiz, zövqlə döşənmiş otaq"ların sahibləri idilər. Həftədə bir dəfə, dördüncü günlər sufi-kommivoyajör evə gecə yarısı qayıdırdı, çünki hansısa ruhu xilas edən söhbətlərə qatılırdı. İkinci günlər naturalistlər gec qayıdardılar - onların "Akvarium" dərnəyinin toplantısı olurdu. Adətən onlar küçə fənərinin altında dayanıb canlılar və qızıl balıqlar barədə mübahisə edərdilər. Bir dəfə 3 il bundan qabaq bizim küçəmizdə hətta sərxoş da görüblər, ancaq deyirlər o, Koşirjdən imiş, sadəcə azıbmış.

Lakin bir rus hər gün saat on ikiyə 15 dəqiqə işləmiş qayıdırdı. O, seyrək saqqallı, orta boylu adam idi, soyadı da ya Kovalenko idi, ya da Kopıtenko. O, pan Yanskinin evində kirayəşin idi. 7 nömrəli evdə.

Onun nəylə dolandığını heç kim bilmirdi. Ancaq axşam saat beşə qədər o, evdə girlənir, sonra portfelini götürüb ən yaxın tramvay dayanacağına yollanır, ordan da şəhərin mərkəzinə gedirdi. Axşamlar da düz saat on ikiyə on beş dəqiqə işləmiş orda tramvaydan düşüb Kruçemburski küçəsinə dönürdü. Sonralar kimsə dedi ki, bütün bu vaxt ərzində o, kafedə oturub başqa ruslarla söyüşürmüş. Bir də deyirlər ki, o, rus ola bilməzdi, çünki ruslar heç vaxt evə belə tez qayıtmırlar.

Keçən ilin fevralı idi. Artıq yuxuya gedirdim ki, pəncərəmin arxasından beş kəskin zərbə səsi eşitdim. Yuxuda mənə elə gəldi ki, mən hələ balacayam və həyətdə qamçı şaqqıldadıram və hər dəfə qamçı şaqqıldayanda onun səsinə sevinirəm. Birdən mən ayıldım və başa düşdüm ki, bu, revolver atəşinin səsidir. Qaçıb pəncərəni açdım və gördüm ki, aşağıda, 7 nömrəli evin qarşısındakı səkidə əlində portfel olan bir kişi üzüqoyulu yıxılıb qalıb. Bu zaman ayaq səsləri eşidildi, küçənin küncündən polis işçisi qaçıb gəldi, yerdəki adama yaxınlaşdı, onu qaldırıb baxdı, ancaq "Ax, zəhrimar!" deyib onu yenə yerə uzatdı və fit çaldı. O dəqiqə küçənin o biri başından daha bir polis göründü və cəld birinciyə yaxınlaşdı.

Mən əlbəttə tezcənə ayaqqabını aya-




ğıma keçirib paltonu çiynimə saldım və aşağı şığıdım. O biri evlərdən vegeterian, musiqiçi, ixtioloqlardan biri, dalandarlar və filatelist də qaçıb gəldilər. Qalanları pəncərədən baxıb qorxudan çənələri əsə-əsə düşünürdülər: "Cəhənnəm olsun, başıma iş açaram". Bu vaxt polislər adamın üzünü çevirdilər.

- Bu ki, pan Yanskinin evində yaşayan rusdur. Kopıtenko, ya da Kovalenko. - mən titrək səslə dedim. - O, ölüb?

- Bilmirəm. - Polis qaş-qabaqla cavab verdi. - Həkim çağırmaq lazımdır.

- Siz onu bu vəziyyətdə qoyacaqsınız? - musiqiçi əsəbiliklə kəkələdi. - Onu xəstəxanaya aparın.

Küçədə artıq on iki nəfər toplanmışdı, hamı soyuqdan və qorxudan titrəyirdi, polislər isə zərərçəkənin yanında çömbəlib nədənsə onun varatnikini açırdılar. Bu vaxt əsas küçənin başında taksi dayandı, sürücü nə baş verdiyini öyrənmək üçün maşından düşdü. Yəqin fikirləşib ki, bu, sərxoş adamdır və onu evinə aparıb pul qazanmaq olar.

- Qardaş, nolub? - o, dostcasına bizdən soruşdu.

- Adam vurublar. - veqeterian dişi dişinə dəyə-dəyə cavab verdi. - Onu maşına qoyub təcili yardıma aparasınız, bəlkə hələ sağdır.

- Lənətə gələsən! - sürücü deyindi. - Belə işləri heç xoşlamıram. Yaxşı, gözlüyün, indi dönüb gəlirəm.

O, tələsmədən maşınına tərəf gedib, onu bizim yanımıza sürdü.

- Onu maşına qoyun - dedi.

İki polis rusu qaldırıb çətinliklə maşına qoydular. O, əslində belə ağır deyildi, ancaq ölüləri idarə etmək çətin olur axı.

- Siz onunla gedin, kolleqa, mən də şahidlərin adlarını yazım. - Bir polis o birinə dedi. - Sürücü, siz "Təcili yardım"a sürün, özdə bir az tez.

- Bir az tez. - sürücü donquldandı. - Bəlkə heç mənim əyləcim işləmir.

Və getdi.

Qalan polis cibindən bloknotunu çıxarıb dedi:

- Adlarınızı deyin, cənablar. Bu, sadəcə şahid ifadələri üçündür.

Və bir-bir hamımızın adını yazdı. O, xeyli qurdalandı. Deyəsən əlləri donmuşdu. Elə biz özümüz də buzlamışdıq. Mən otağıma qayıdanda on ikiyə iyirmi beş dəqiqə işləmişdi. Deyəsən hər şey on dəqiqə çəkmişdi.

Bilirəm, siz deyəcəksiniz ki, bu hadisədə qeyri-adi heç nə yoxdur. Ancaq qulaq asın, pan Taussiq, bizim küçəmiz kimi sakit küçədə bu, böyük hadisə idi. Qonşu küçələr bizim şöhrətimizin işığında qızınırlar. Çünki, onlar "o hadisə bu tində olub" deyə bilirlər. Bizdən uzaqda olan küçələrin sakinləri laqeyd görünməyə çalışırlar, ancaq bu, bilmək istəyirsinizsə, ancaq hikkədən və həsəddən irəli gəlir - axı hadisə onların küçəsində olmayıb. Daha uzaqda yaşayanlar isə əllərini yelləİib deyirlər: "Deyəsən orda kimisə vurublar, Allah bilir, düzdü, ya yox". Ancaq bu yalnız və yalnız paxıllıqdandır.

Təsəvvür edirsiniz də, sabahsı gün bizim küçənin bütün sakinləri axşam qəzetlərinə necə hücum çəkdilər? Əvvəla biz bizim qətl haqqında yenilikləri öyrənmək istəyirdik. İkincisi, hamı öz küçəsində baş vermiş hadisə haqqında oxuyacağından həzz alırdı. Məlumdur ki, insanlar qəzetdə şahidi olduqları hadisə haqqında oxumağı daha çox sevirlər. Deyək ki, Uyezddə at yıxılıb və bu, nəqliyyatın hərəkətini on dəqiqə iflic edib. Əgər bu barədə heç nə yazılmayıbsa, şahid əsəbləşir və qəzeti stolun üstünə tullayır, çünki orda oxumağa heç nə yoxdur. Onun özünün də birbaşa iştirak etdiyi hadisənin jurnalistləri maraqlandırmaması onu demək olar ki, təhqir edir. Məncə hadisələr bölməsi məhz bu cür hal şahidləri üçün yaradılıb ki, onlar inciyib qəzet almaqdan əl çəkməsinlər.

*Ardı gələn sayımızda.*

# Qocalma hansı yaşdan başlayır?



Alimlər müəyyən ediblər ki, cinsindən, həyat tərzindən və ya çəkisindən asılı olmayaraq insan 39 yaşından sonra qocalmağa başlayır. Belə hesab olunur ki, məhz bu yaşda, həyat yolunun bu yarısından sonrakı idrak və dayaq-hərəkət funksiyaları getdikcə zəifləyir.

Elm adamları kəşflərini belə izah edirlər ki, 39 yaşında insanda myelin maddəsinin ifrazı azalır. Myelin qatı sinir hüceyrəsi neyronlarının üzərini örtərək onları kənar mənfi təsirlərdən qoruyur. Məhz myelin ifrazının dayanması orqanizmin hərəkət və idrak funksiyasının zəifləməsinə səbəb olur. Həmçinin məlumdur ki, myelin örtüyünün zədələnməsi dağınıq skleroz kimi qorxulu xəstəliklə nəticələnir.

Aparılan araşdırmalarda 23-80 yaş arası könüllülər iştirak edib. İştirakçılardan müxtəlif hərəkətləri yerinə yetirmələri xahiş olunub, alimlər isə həmin hərəkətlərin sürətini ölçüblər. Bununla yanaşı, könüllülərin orqanizmində myelinin səviyyəsi də ölçülüb.

Nəticədə ortaya çıxan müəyyən qanunauyğunluğa əsasən belə qərara gəlinib ki, insanın fəallığının və myelin ifrazının pik həddi 39 yaşa təsadüf edir. Bu yaş sərhədini keçdikdən sonra orqanizmdə myelin ifrazının azalması ilə qocalma prosesi başlayır.

## Mükafatlı sual rubrikası



O, türk tarixinə möhür vuran böyük bir imperiyaya hökmranlıq etmiş sultanların atabəyi və baş vəziri olub. Dövlətin iqtisadi qüdrətinin artırılmasında, qoşunun möhkəmlənməsində, ölkənin mədəni həyatının inkişafında əhəmiyyətli rol oynayıb. Vəzirlik dönəmində Sultanın istəyi ilə qələmə aldığı əsər bügünümüzə miras qalmış ən mötəbər ədəbi-tarixi abidələrdəndir. Sözügedən əsərdə Türk-İslam dövlətinin idarə sistemi, vergi qaydaları, hərbi quruluşu, təhsili, mədəniyyəti və bir sıra qayda qanunları barədə məlumat verilir.

Söhbət kimdən və hansı əsərdən gedir? Sualı ilk cavablandıran oxucumuz redaksiya tərəfindən ən qiymətli mükafat-la-kitabla mükafatlandırılacaq.

**Vatsap:**
**+99455-875-16-39**

**Şamaxı Rayon Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində 2022-ci il dekabrın 25-dən yanvarın 2-dək olan müddətdə Şəhriyar qəsəbəsindəki həyətyanı sahələrin birindən 2100 manat dəyərində 1 ədəd otbiçən aparat, 4 ədəd dəmir boru, 2 ədəd kotanın dəmir hissəsi və inşaat materialları oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş V.Quliyev saxlanılıb.

◆◆◆

Yanvarın 4-də saat 22 radələrində bir nəfərin Bakı şəhər sakinləri Q.Qənbərovun döş qəfəsinə bıçaqla və qardaşının baş nahiyəsinə daşla xəsarət yetirməsi barədə **Nərimanov RPİ-nin 17-ci Polis Şöbəsinə** məlumat daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qəsdən sağlamlığa ağır zərər vurmaqda şübhəli bilinən paytaxt sakini S.Hacıyev müəyyən edilərək saxlanılıb.

◆◆◆

**Nərimanov RPİ 17-ci Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində 2022-ci il dekabrın 22-də A.Aqarunov küçəsində yerləşən Hospitalın həyətindən 5180 manat dəyərində oksigen aparatını oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini N.Mirzəyev saxlanılıb.




◆◆◆

**Nəsimi RPİ 19-cu Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində yanvarın 2-də rayon ərazisindəki evlərin birindən 7400 manat, 3600 ABŞ dolları və 1000 manat dəyərində qızıl üzük oğurlamaqda şübhəli bilinən Şamaxı rayon sakini, əvvəllər məhkum olunmuş Ə.Əsgərov saxlanılıb.

◆◆◆

**Ağcabədi Rayon Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində yanvarın 4-də Minəxorlu kəndi ərazisindəki mağazaların birindən 4400 manat oğurlamaqda şübhəli bilinən İmişli rayon sakini S.Şirəliyev saxlanılıb.

◆◆◆

**Samux Rayon Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Burunqovaq kənd sakini T.Kərimovdan qanunsuz saxladığı "Toz-16" markalı ov tüfəngi götürülüb.

◆◆◆

**Şəki Şəhər-Rayon Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində Mingəçevir şəhər sakini, əvvəllər məhkum olunmuş F.Qasımov saxlanılıb. Şəxsi axtarış zamanı ondan 415 qram marixuana və metamfetamin aşkar edilərək götürülüb.

◆◆◆

**Beyləqan Rayon Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində 1-ci Aşıqlı kənd sakini Ş.Yusifovdan qanunsuz saxladığı "İJ" markalı ov tüfəngi götürülüb.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik